Qasımova S., Abdullayeva Z. “Fikrət Əmirov”. Bakı, 2004, 210 s.
Zöhrabov R. “Bəstəkarlarımız haqqında söz”. Bakı, 1995, 90 s.
**Saytoqrafiya**
“Harmony” musiqi kulturuloji beynəlxalq elektron jurnal. http://harmony.musigi-dunya.az
Musiqi dünyası” elektron jurnalı. http://www.musigi-dunya.az

## ТРАДИЦИИ НАРОДНОГО МЫШЛЕНИЯ В ТВОРЧЕСТВЕ ФИКРЕТА АМИРОВА

***Магеррамова Сяма Башир кызы***

***Резюме***

Выдающийся азербайджанский композитор Фикрет Амиров – автор оперы, балетов, симфоний, симфонических поэм, симфонических мугамов, сюит, каприччио, фортепианных концертов, фортепианных пьес, сонат, музыкальных комедий, песен, романсов, музыки к драматическим спектаклям, кино и т.д.

При широком жанровом разнообразии, два жанра – симфонический и музыкально-сценический занимают ведущие место в творческом наследии композитора.

Национально-ладовое мышление, опора на национально-почвенные традиции, определяют особенность творческого стиля композитора.

## TRADITIONS OF PEOPLE THINKING IN THE CREATIVITY OF FIKRET AMIROV

***Maharramova Sama Bashir***

***Summary***

The prominent Azerbaijani composer Fikret Amirov is the author of operas, ballets, symphonies, symphonic poems, symphonic mugams, suites, capriccio, piano concerts, plays, sonatas, musical comedies, songs and novels, music for dramas and movies.

In spite of the diversity of genres, symphonic and musical-stage works occupy a leading place in the composer's creative heritage.

Close connection to national thinking, national musical traditions, national background is one of the foundations of the composer's creative style.

***Rəyçi: Şabanova Sevil***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT:784.**

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN BEŞİNCİ SİNİFLƏRİNDƏ AZƏRBAYCAN MUĞAMLARINDAN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRİN MUSİQİ TƏRBİYƏSİNİN İNKİŞAFI ÜZRƏ İŞİN ÜSULLARI

***Məmmədova Qəsirə Tofiq qızı***
***Gəncə Dövlət Universiteti***
***qasira.mammedova@gmail.com***

**Xülasə**: *Klassik Azərbaycan muğamları öz dərin fəlsəfi məzmunu, insanlara göstərdiyi emosional təsir qüvvəsinə görə digər xalqlarin musiqi nümunələrindən köklü surətdə fərqlənir. Təsadüfi deyildir ki, Azərbaycanın xalqının böyük dəyərlərindən olan muğam 2008-ci ildə YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına daxil edilmişdir.*

*Məktəblilərin musiqi tərbiyəsi və musiqi inkişafı baxımından Azərbaycan muğamlarının tədris imkanları böyükdür.*

*Bu baxımdan məqalədə Azərbaycan muğamlarından istifadə etməklə beşinci sinif şagirdlərinin musiqi tərbiyəsinin inkişafı üzrə iş metodları araşdırılmışdır.*

**Açar sözlər:** Muğam, Rast , musiqi, məktəb, müəllim, üsul

**Ключевые слова:** Мугам, Раст,музыка, школа, учитель, способ

**Key words:**Mugam, Rast ,mussic , school, teacher, way

Azərbaycan xalqının ən zəngin milli-mənəvi dəyərlərindən biri də muğamlardır.Ölkəmizin Birinci vitse-prizidenti Mehriban xanım Əliyeva “Muğam aləmi” Beynəlxalq Festival çərçivəsində keçirilən Beynəlxalq elmi simpoziumun açılış mərasimində demişdir: “Biz azərbaycanlılar hamımız, haqlı olaraq , öz doğma muğamlarımızla fəxr ediirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli yəyaqət, mərhəmət, emosional zənginlik-bütün bu hisslər muğam fəlsəfəsinin əsasıdır” [3].

Muğamlarımıza göstərilən dövlət qayğısına cavab olaraq ümumtəhsil məktəblərimizdə muğamlarımızın öyrədilməsinə, onların milli-mənəvi irsimiz kimi təbliğ olunmasına xüsusi diqqət göstərilməlidir. Muğamlarımız təbliği,tədrisi ilk növbədə musiqi müəllimlərinin qarşısında duran vəzifələrdən biridir.

Pedaqoji prosesdə muğamın məktəblilərə öyrədilməsinin bir sıra elmi, pedaqoji, psixolojoi və metodiki istiqamətləri mövcuddur. Bunları bilmədən şagirdlərə muğam ladlarını, şöbə və guşələrini, təsnif və rənglərini öyrətmək mümkün deyildir.

Pedaqoji əsaslar qeyd edilərkən ilkin olaraq muğamlarımızın tərbiyəvi əhəmiyyəti yada düşür. Ona görə ki, muğamlar məktəblilərdə yüksək bədii zövq aşılamaqda yanaşı, onları həm də onları tərbiyələndirir. ”Unutmamalıyıq ki, muğamlarımız təkcə zövq mənbəyi deyil,onlar həm də Azərbaycan xalqı ilə yanaşı bütün Şərq xalqlarının müxtəlif ictimai-iqtisadi formasiyası yolları dövrü üçün səciyyəvi olan həyat hadisələri, biosferi, coğrafiyası, tarixi hadisələri barədə dinləyicidə zəngin təsəvvür yaradır ” [6, s.522].

“Lap məktəbəqədər dövrdən başlayaraq uşaqlara lad-məqam anlayışlarının verilməsi, muğam rəngləri, təsnifləri, şöbələri, guşələri ilə onların tanış edilməsi çox faydalıdır. Məhz belə bir şəraitdə uşaqlarda ilkin muğam dünyagörüşü yaratmaq mümkündür” [7,s.43].

Bildiyimiz kimi musiqi müəlliminin pedaqoji fəaliyyətinin əsasında ümumpedaqoji, dirijor, ifaçıvə tədqiqat fəaliyyəti dayanır. Bunlar isə müvafiq bilik, bacarıq və vərdişlərə əsaslanır. Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri ilə bağlı dəyərli elmi əsərlərin müəllifiprofessor N.Kazımov məktəblilərdə muğam sənətinə məhəbbət hissinin aşılanması, məktəblilərin musiqi tərbiyəsi və musiqi inkişafında muğamlardan məqsədyönlü istifadə edilməsi üçün aşağıdakı metodik məsələlərə xüsusi diqqət yetirməyi tövsiyə edir:

“1. Müəllimlər dinləniləcək muğamların mahiyyəti, xarakteri, quruluşu haqqında aydın, mükəmməl məlumata yiyələnməlidir.

2.Müəllimlər dinləniləcək muğamların fəlsəfi-estetik mahiyyətini şagirdlərə

daha həyatı mövqedən çatdırmaq üçün alimlərin, mütəfəkkirlərin ayrı-ayrı muğamlar haqqında söylədikləri qiymətli fikirləri qabaqcadan öyrənməli və yeri gəldikcə onlara istinad etməyi bacarmalıdırlar.

Müəllimlər dinləniləcək hər hansı muğam şöbəsini və ya muğamı daha

effektli şəkildə şagirdlərə təqdim etmək, onlarda bu janra dərin maraq oyatmaq üçün zəruri texniki vasitələri (CD disklər, DVD və texniki vasitələr və s.) idarə etmək, işlətmək bacarığına yiyələnməlidirlər.

Müəllimlər muğamların tədrisi, ayrı-ayrı siniflərdə dinlənilməsi ilə bağlı

belə bir fikri şagirdlərin nəzərinə çatdırmalıdırlar ki, muğamlar, onların müvafiq təsnifləri poeziya ilə vəhdətdə inkişaf edir. Hər muğamın mahiyyətini, xarakterinə uyğun seçilən və xüsusilə əruz vəznində olan qəzəl, şeir nümunələri muğamların estetik təsirini daha da qüvvətləndirir" [ 4,s.21].

Təlim prosesi müəllim və şagird ünsiyyətinin səmərəli yoludur. Dərsdə onların qarşılıqlı münasibətlərinin əsası qoyulur.

Hər hansı bir fənnin təlim metodları müəllim tərəfindən icra olunan hərəkət sistemini təşkil edir. Həmin sistem məktəblilərə təlimin məzmununu mənimsəmə məqsədilə müəllim fəaliyyətinin təşkilinə yönələn hərəkətlər sistemidir.

Məlumdur ki, təlim metodlarının üç aparıcı funksiyası olmalıdır: tənzimləyici funksiya, idrakedici funksiya və əlaqələndirici funksiya.

Tənzimləyici funksiya tədris fəaliyyəti ilə təhsilin məqsəd və vəzifələrinin nisbəti kimi təyin edilir. Təlim metodlarının idrakedici funksiyası təlim fəaliyyəti və təlim məzmununun nisbəti vasitəsilə açıqlanır.Təlim metodlarının əlaqələndirici funksiyası müəllim və şagirdlərin qarşılıqlı münasibətlər üslubunu əks etdirir. Həmin metodların reallaşmasında müəllimşəxsiyyətinin roluolduqca vacibdir. Müəllimin musiqi təsəvvürlərinin genişliiyi, məktəblilər tərəfindən qavranılan və ifa edilən canlı musiqiyə maraq göstərməsi və şagirdlərin əldə etdikləri uğurlarını düzgün və obyektiv qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Beşinnci sinif "Musiqi" dərsliyində klassik muğamlarımızın tədrisi müəyyən yer tutur. Dərslikdə 10-cu mövzu "Muğamların növləri" [5,s.26] adlanır. Bu dərsi musiqi müəllimi aşağıdakı kimi planlaşdıra bilər.

Mövzu. Muğamların növləri.

Məqsəd. Muğam musiqisininyalnız Şərq ölkələrinə məxsusluğunu və əruz vəznində olan "Qəzəl" lərlə ifa olunduğunu izah etmək.

Məzmun standartları. 1.2.2. Azərbaycanın əsas muğamlarının və aşıq musiqilərinin adlarını söyləyir, onları fərqləndirir, poeziya və təsviri incəsənət nümunələrilə əlaqələrini izah edir [1, s.30].

İnteqrasiya. Fənlərarası. Ədəbiyyat.-1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini müəyyənləşdirir [2, s.36].

Fəndaxili- 3.1.1. Mahnını not və mətni ilə birsəsli ( unison) oxuyur [1,s.32 ].

İş üsulu- şaxələndirmə, beyin həmləsi, müqayisə.

Dərsin mərhələləri.

1.Motivasiya.

"Rast" muğamının "Bərdaşt" şöbəsi səsləndirilir. Müəllim keçirilən materialdan – mahnının, aşıq musiqisinin poeziya ilə əlaqəsi haqqında qısa, təkrar söhbət aparır. Bundan sonra müəllim şagirdlərə sualla müraciət edir.

Uşaqlar, dinlədiyiniz əsər hansı janra məxsusdur?

Bəs bu əsəri kim ifa edir?

Tədqiqat sualı: Muğamı ifa edərkən xanəndələr hansı poeziya janrından istifadə edirlər?

Tədqiqatın aparılması.

Müəllim şagirdlərə tapşırır ki, instrumental və vokal-instrumental muğamlar arasındakı fərqli və oxşar cəhətləri müəyyənləşdirilib sonra Venn diaqramında qeyd etsinlər.

2.Oxşar cəhətlər. A. Muğam şöbələrin adları eynidir. B. Muğam şöbələr eyni musiqi intonasiyalarından ibarətdir. C. Musiqinin inkişafı eynidir. Ç.İfa olunan muğamlrın adları eynidir.

3.Fərqli cəhətlər. A. Vokal-instrumental muğamları xanəndə oxuyur, onu tar, kamança, dəf müşayiət edir. B. Xanəndə muğam şöbələrini oxuyarkən Azərbaycan klassik şeir nümunələrindən olan qəzəllərdən istifadə edir. C. Böyük şöbələr arasında xanəndə təsniflər oxuyur. Ç. Xanəndə həmçinin dəf alətində çalmaq bacarığına malik olur.

4.İnformasiya mübadiləsi və müzakirəsi.

- Qəzəlin musiqi müşayiəti ilə oxunması hansı məqsəd daşıyırsı.
- Muğamım poetik mətnini hansı poetik forma təşkil edir?
- Qəzəl poeziya janrı hansı xalqlara məxsusdur?
- Hansı şairin qəzəlindən bir parça söyləyə bilərsiniz?

Bundan sonra Niyazinin "Rast" simfonik muğamından "Bərdaşt" səsləndirilir.

5.Nəticə və ümumiləşdirmə. Ona görədə ifa tərzinə görə muğamlar 2 yerə bölünür: İnstrumental muğamlar və vokal-instrumental muğamlar. Muğam sənətində poetik mətn kimi qəzəllərdən istifadə edilir.

6.Yaradıcı tətbiqetmə. Müəllim "Rast" muğamının "Bərdaşt" şöbəsindən qısa melodiyanı notla şagirdlərlə birlikdə oxuyur.

7. Qiymətləndirmə və refleksiya.

Dərs ümumiləşdirilir. Müəllim şagirdlərin mövzusunu necə dərk etmələrini müəyyənləşdirmək üçün aşağıdakı suallarla müraciət edir.

- Azərbaycan klassik muğamları ifa xüsusiyyətlərinə görə neçə qrupa bölünür?
- Qəzəl nədir?
- Hansı klassik Azərbaycan muğamlarını tanıyırsınız?
- "Rast" simfonik muğamının müəllifi kimdir?

Müəllim tədris etdiyi mövzuları aşağıdakı test tapşırıəqları vasitəsilə məktəblilərin necə qavramalarını müəyyən edə bilər.

Vokal-instrumental muğamları kim ifa edir?

Xanəndə B) Vokalçı C) Müğənni

Muğamların ifasında hansı poeziya nümunəsindən istifadə olunur?

Qəzəl B) Bayatı C) Gəraylı

- "Rast" simfonik muğamının müəllifi kimdir?

A) Niyazi B) Fikrət Əmirov C) Süleyman Ələsgərov

-"Vətənimsən" mahnısının müəlliflərinin ad və soyadını yazın:

Bəstəkar __________ Şair ___________

Nəticə olaraq deməliyik ki, musiqi dərslərində muğamların tələb olunan səviyyədə tədris olunması məktəblilərin musiqi tərbiyəsi ilə yanaşı onların mənəvi keyfiyyətlərinin yüksəldilməsinəköməklik göstərir.Şifahi ənənə əsaslanan professional musiqi sənətimizin çox dəyərli nümunələri olan muğamlarımızdanümumtəhsil məktəb şagirdlərinin musiqi tərbiyəösi və musiqi inkişafında daha geniş istifadə edilməsi müasir dövrün aktual məsələlərindəndir.

***Ədəbiyyat***


1.Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Musiqi fənni üzrə təhsil proqramı (Kurikulun) . ( I-IX siniflər). Bakı, Təhsil, 2013, 72 s.

**2.**Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı (Kurikulun) . (V-XI siniflər). Bakı, Təhsil, 2013, 94 s.

3.Əliyeva M. "Muğam aləmi" . "Respublika" qəzeti, 19 mart, 2009.

4.Kazımov N.K. Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri. Bakı, Çaşıoğlu, 2000, 98 s.

5.Rəcəbov O.M., Kazımov N.K., Axundova Y.Ə., İmanova O.S.Ümumtəhsil məktəblərinin 5-ci sinifləri üçün Musiqi fənni üzrə dərslik. Bakı, Təhsil. 2018, 80 s.

6.Sadıqov F.B. Muğam (dərs vəsaiti). Bakı, Adioğlu ,2011, 256 s.

7.Sadıqov F.B. Pedaqogika (dərs vəsaiti). Bakı, Adioğlu, 2012, 516 s.

## МЕТОДЫ РАБОТЫ ПО РАЗВИТИЮ МУЗЫКАЛЬНОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ ПЯТЫХ КЛАССОВ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ ПУТЁМ ИСПОЛЬЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКИХ МУГАМОВ

***Мамедова Гасира Тофик кызы***

***Резюме***

Классические Азербайджанские мугамы в корне отличаются от музыкальных образцов других народов своим глубоким философским содержанием и силой эмоционального воздействия на людей. Неслучайно в 2008 году одна из величайших ценностей Азербайджанского народа мугам, был включен ЮНЕСКО в список шедевров устного и нематериального культурного наследия человечества.

Азербайджанские мугамы имеют большие педагогические возможности в плане музыкального образования и музыкального развития школьников.

В связи с этим в статье рассматриваются методы работы по развитию музыкального воспитания пятиклассников путем использования Азербайджанских мугамов.

## AZERBAIJANI MUGAMS AS THE MEANS OF FORMING SCHOOLSHILDREN`S ARTISTIC TASTES AND MORAL QUALITIES

***Mammeadova Qasira Tofiq***

***Summary***

In the article it is dealt with scientific, pedagogical. Psechological and methodical basis listening to mugams in music lessons, their learning and propagating. The author criticizes that professionals who graduated the profession of music teacher don`t want to go to villages and regions, music lessons are taught by other profession teachers, and explains the problems of teaching mugams arisen from that reason. Explaining the essence of the work done to solve the very problems the author of the article gives some valuable recommendations to music teacher. She considers mugams as the means of forming both artistic and moral qualities.

In the article also scientific innovations are proposed for and the articlele`s practical significance and applied opportunities are explained.

***Rəyçi: Məmmədova Rəşidə***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT:781**

## FREDERİK ŞOPENİN YARADICILIĞINDA RƏQS MUSİOİSİ VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ ONDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Şabanova Sevil Ağaəli qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:***Məqalədə görkəmli bəstəkar və pianoçu Frederik Şopenin yaradıcılığında rəqs musiqisi və məktəblilərin musiqi tərbiyəsində ondan istifadənin imkan və yolları araşdırılır. Polşa milli musiqisinin klassiki F.Şopenin yaradıcılığı əsasən fortepiano musiqisindən ibarətdir. Bəstəkar bu alətin ifadə imkanlarını genişləndirmiş, onda elə zəngin boyalar tapa bilmişdir ki, o, bütöv orkestri əvəz etmişdir. F.Şopen milli polyak rəqsləri olan polonez və mazurkaya öz fortepiano yaradıcılığında yeni həyat vermişdir. F.Şopen böyük novator, orijinal musiqi janrının və formalarının yaradıcısıdır.*

*Məktəblilərin musiqi tərbiyəsində F.Şopenin fortepiano əsərlərindən geniş istifadə etməklə, onların vətənpərvər ruhda yetişmələrinə nail olmaq olar.*